**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№379/3** **17 sentyabr 2025-ci il**

**“Azərbaycan Respublikasının Auditorlar Palatasında daxili auditin aparılması üzrə Təlimat”ın təsdiq edilməsi barədə**

Daxili audit fəaliyyətinin beynəlxalq standartlara və qabaqcıl təcrübəyə uyğun şəkildə təşkili, Auditorlar Palatasının daxili nəzarət mexanizmlərinin təkmilləşdirilməsi və səmərəli fəaliyyətinin təmin edilməsi məqsədilə Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov və Palatanın daxili auditoru Ş.Əsgərova tərəfindən hazırlanmış “Auditorlar Palatasında daxili auditin aparılması üzrə Təlimat”ın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Azərbaycan Respublikasının Auditorlar Palatasında daxili auditin aparılması üzrə Təlimat” təsdiq edilsin (əlavə olunur).

2. Auditorlar Palatasının struktur bölmələrinə tapşırılsın ki, öz fəaliyyətlərini həyata keçirərkən bu Təlimatın tələblərinə riayət etsinlər.

3. Daxili auditor Ş.Əsgərovaya tapşırılsın ki:

3.1. Auditorlar Palatasının struktur bölmələrinin fəaliyyətinin monitorinqini və təhlilini bu Təlimata uyğun aparsın;

3.2. iki həftə müddətində “Azərbaycan Respublikasının Auditorlar Palatasında daxili auditin aparılması üzrə Təlimat” barədə məqalə hazırlayıb KİV-də işıqlandırılması üçün təqdim etsin.

4. Auditorlar Palatasının struktur bölmələrinə tapşırılsın ki, bu Təlimatın tələblərinə ciddi riayət etsinlər.

5. Bu qərarın və Təlimatın mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**